# Azsaylı xalqların uşaqları üçün məktəbəhazırlıq qruplarının 2019-2020-ci dərs ilinə aid tədris (məşğələ) planının təsdiqi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində azsaylı xalqların uşaqlarından ibarət məktəbəhazırlıq qruplarında təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində azsaylı xalqların uşaqları üçün təşkil edilən məktəbəhazırlıq qruplarının 2019-2020-ci dərs ilinə aid tədris (məşğələ) planı və tədris (məşğələ) planına dair "Qeydlər" təsdiq edilsin (1 və 2 nömrəli əlavələr).

**2.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*12 iyul 2019-cu il*

---

*Azərbaycan Respublikası Təhsil nazirinin 12.07.2019-cu il tarixli, F-443 nömrəli əmrinə 1 nömrəli əlavə*

### 2019-2020-ci dərs ili üçün azsaylı xalqların uşaqları üçün məktəbəhazırlıq qruplarının tədris (məşğələ) planı

| № | Dərs məşğələləri | Həftəlik məşğələ saatlarının miqdarı |
|---|---|---|
| 1. | Ətraf aləmlə tanışlıq | 1 |
| 2. | Savad təliminə hazırlıq və nitq inkişafı | 4 |
| 3. | Bədii təfəkkürün inkişafı | 1 |
| 4. | Məntiqi və riyazi təfəkkürün inkişafı | 2 |
| 5. | Təsviri fəaliyyət | 1 |
| 6. | Musiqi | 1 |
| 7. | Fiziki mədəniyyət | 2 |
| | **Cəmi:** | **12** |

*Azərbaycan Respublikası Təhsil nazirinin 12.07.2019-cu il tarixli, F-443 nömrəli əmrinə 2 nömrəli əlavə*

### Tədris (məşğələ) planına dair qeydlər

**1.** Azsaylı xalqların uşaqları üçün təşkil edilən məktəbəhazırlıq təhsili, əsasən, həmin uşaqların seçilən tədris dili üzrə nitq bacarıqlarının formalaşdırılmasını, eləcə də məktəbəhazırlıqla bağlı digər zəruri məsələlərin təmin olunmasını nəzərdə tutur.

**2.** Məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olan uşaqlar qəbul edilirlər.

**3.** Məktəbəhazırlıq qruplarında uşaqların sıxlığı aşağıdakı kimi müəyyənləşdirilir:

- qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün – ən azı 10 uşaq;
- şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün – ən azı 15 uşaq.

**4.** Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.

**5.** Məktəbəhazırlıq qruplarında məşğələlər oktyabrın 1-də başlayır və mayın 31-də başa çatır.

**6.** Məktəbəhazırlıq məşğələləri həftədə 4 (dörd) gün keçilir. Bir gün ərzində 3 (üç) məşğələ tədris olunur.

**7.** Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.

**8.** Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlara ev tapşırıqları nəzərdə tutulmur.

**9.** Məktəbəhazırlıq qruplarında məşğələlərə davamiyyət və tədris olunan mövzu müvafiq sinif jurnalında qeyd edilir, uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir.

**10.** Məktəbəhazırlıq qruplarında məşğələlər yalnız ibtidai sinif müəllimi ixtisaslı və müəyyən iş təcrübəsinə malik müəllim tərəfindən aparılır.

**11.** Məktəbəhazırlıq qruplarında dərs ili iki yarımilə bölünür:

I yarımil: 1 oktyabr-26 yanvar;
II yarımil: 1 fevral-31 may.

**12.** Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:

- 5 gün payız tətili (16-20 noyabr);
- 5 gün qış tətili (27-31 yanvar);
- 5 gün əlavə tətil (1-5 may).

---

Azərbaycan müəllimi.- 2019.- 19 iyul.- S.6.